# "Hirkan" sənədli filminin təqdimatı



Qəbələ şəhəri Heydər Əliyev Konqres Mərkəzində "Hirkan" sənədli filminin təqdimat mərasimi keçirilib. Mərasimdə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva iştirak edib. Film IDEA İctimai Birliyinin "Azərbaycanın 12 möcüzəsi" adlı xüsusi layihəsi çərçivəsində hazırlanan növbəti ekran işidir və Azərbaycanın təbiət incilərindən biri olan Hirkan Milli Parkına həsr olunub. "Hirkan" sənədli filmi ölkəmizin nadir flora və faunasına malik bu təbiət guşəsinin unikal ekosistemini və onun qorunması istiqamətində həyata keçirilən fəaliyyətləri özündə ehtiva edir. Filmin rejissoru İqor Bışnyovdur. Layihənin təşəbbüskarı olan Leyla Əliyevanın rəhbərliyi ilə bu günədək ümumilikdə səkkiz sənədli film hazırlanıb. Bu filmlər sosial şəbəkələrdə milyonlarla izləyici tərəfindən maraqla qarşılanaraq ölkəmizin zəngin təbiətinin təbliğinə mühüm töhfə verib. Qeyd edək ki, "Azərbaycanın 12 möcüzəsi" adlanan layihə çərçivəsində əhatə olunan milli parklar ölkəmizin müxtəlif coğrafi bölgələrini və ekosistemlərini əks etdirir. Bunlara Ağgöl, Şirvan, Hirkan, Altıağac, Abşeron, Şahdağ, Göygöl, Samur-Yalama, Qızılağac, Axar-Baxar, İlisu və Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkları daxildir. Sözügedən parklar Azərbaycanın zəngin təbii irsinin qorunması və təbliği baxımından böyük əhəmiyyət kəsb edir.

**"Qəbələ səsi"**

# "Gənc arıçı" layihəsinin iştirakçısı ilə görüş



Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva Qəbələ rayonunda "Gənc arıçı" layihəsinin iştirakçılarından biri olan, Mıxlıqovaq kəndində yaşayan Qafarovlar ailəsinin qonağı olub. Görüş zamanı ailə üzvləri ilə səmimi söhbət edilib, onların layihə çərçivəsində qazandıqları təcrübə və gələcək planları ilə yaxından maraqlanılıb. Ailə üzvləri bu layihənin həyata keçirilməsi təşəbbüsünə, eləcə də Leyla Əliyevanın şəxsən ziyarətinə görə səmimi minnətdarlıqlarını bildiriblər.

Məlumat üçün bildirək ki, gənc arıçı Lalə Qafarova ötən il 40 kiloqram, bu il isə 100 kiloqram bal istehsal edib. O, həmçinin Leyla Əliyevanın təşəbbüsü ilə ötən ay Kəlbəcərdə keçirilən Bal Festivalında "Gənc arıçı" layihəsinin iştirakçısı qismində çıxış edərək öz məhsullarını alıcılara təqdim edib. Qeyd edək ki, 2021-ci ildən başlayaraq IDEA İctimai Birliyinin təşəbbüsü və Azərbaycan Respublikasının Gənclər Fondu, Dövlət Məşğulluq Agentliyi və "ABAD" publik hüquqi şəxsin tərəfdaşlığı ilə həyata keçirilən "Gənc arıçı" layihəsinin əsas məqsədi regionlarda gənc ailələrin arıçılıq sahəsinə marağını artırmaq, onların məşğulluğunu və ekoloji cəhətdən dayanıqlı kiçik ailə bizneslərini dəstəkləməkdir.

# Konstitusiya və Suverenlik İli

Hər bir millətin tarixi,qədim ulu keçmişə malik genetikası, milli mənsubiyyəti, ümumi rifahına xidmət edən qanunları var. Bütünlüklə mövcud olan bu toplumlar olduğu halda keçmişini, tarixini, yaşadığı dövlətin qanunlarını bilmədən gələcəyi düşünmək heç doğru yol deyildir. Həyatda düzgün mövqe tutmaq, bir dövlət olaraq doğru, təməlli şəkildə siyasət yürütmək, vətəndaşının mənafeyinə xidmət edə biləcək qanunlarla hərəkət etmək əsas həyat amalı, qanunu olmalıdır.

Azərbaycan xalqı milli süverenliyini, azadlığını tələb etdiyi tarixi günlərdən, sovetlər ittifaqından ayrıldıqdan sonra yeni bir yol açdı. Bu azadlığa gedən yol idi. Bu yol bizi uzaqlara, xoşbəxt gələcəyə aparan bir kəhkəşan idi. Və nəhayət, 1993-cü il xalqın təkidli tələbi ilə Ümummilli Lider Heydər Əliyev hakimiyyətə gəldi. Xalqın istək və arzuları reallaşdı. Çünki, xalq taleyinin əminli əllərdə olduğunu anlayırdı, ölüm diləməsi qarşısında qalan xalqın artıq sabaha ümidləri göyərdi, həyat, yaşamaq amalı gücləndi. Ümumilli Liderin hakimiyyətə gəlməsi köklü, əsaslı surətdə hər şeyi yaxşıya doğru yönəltdi. Möhkəm bünövrəyə malik Yeni Azərbaycan quruldu. Bu Azərbaycanın gələcəyə tam sərbəst və aydın şəkildə yeriməsi üçün əsas dövlət qanunları vacib idi. Heydər Əliyev hər zaman çıxışlarında dövlətimizin konstitusiyasının qəbulu vacibdir deməklə yaranan Yeni Azərbaycanı daha da möhkəmləndirmək istəyirdi və nail oldu da. Onun rəhbərliyi ilə Konstitusiya komissiyası tərəfindən müstəqil Azərbaycan Respublikasının Konstitusiyası layihəsi hazırlandı. 1995-ci il noyabrın 12-də keçirilmiş referendumda əsas qanunumuz qəbul edildi.

1995-ci il noyabrın 12-də keçirilmiş referendumda seçicilərin 86 faizi iştirak etmiş və Dövlətin Əsas Qanunu 1995-ci il noyabrın 27-də qüvvəyə minmişdir.

Konstitusiya qəbul edilən gün - noyabrın 12-də respublika parlamentinə ilk dəfə çoxpartiyalı sistem əsasında demokratik seçkilər də keçirildi. İlk Konstitusiyanın milli dövlətçilik tarixində müstəsna əhəmiyyəti nəzərə alınaraq, Ulu Öndər Heydər Əliyevin 1996-cı il 1 noyabr tarixli Fərmanına əsasən hər il noyabrın 12-si Konstitusiya Günü kimi qeyd edilməyə başlandı və yeni Konstitusiyanın qəbulu davamlı inkişafın əsasını qoydu. Azərbaycanın qurucusu dahi şəxsiyyət hər zaman vurğulayırdı ki, milli ideologiyamız, ilk növbədə dövlətimizin konstitusiya normalarına, xalqımızın tarixi keçmişinə, milli-mənəvi dəyərlərinə, mövcud adət-ənənələrə, ölkəmizin bu günü və gələcəyinə bağlı olmalıdır. Əsas Qanunumuzda dilindən, dinindən, irqi mənsubiyyətindən asılı olmayaraq, Azərbaycanda yaşayan bütün vətəndaşların hüquq və azadlıqları geniş təsbit olunmuşdur. Əlbəttə Azərbaycan Respublikasının Konstitusiyası dövlətə məxsus hər bir var-datın, xalqın mənafeyini müdafiə edən ən böyük mühafizə sistemidir. Konstitusiyamız bu dövlətdə yaşayan, dilindən, dinindən asılı olmayaraq hər bir vətəndaşın layiqli müdafiəçisidir. Qanunlar taleyimizin ən doğru həyat amalı, doğru yolumuzun mayakıdır. Konstitusiyamız milli ideologiyamızla vəhdət təşkil edir və etməlidir.




Bildiyimiz kimi, 2025-ci il Prezident İlham Əliyevin Sərəncamı ilə "Konstitusiya və Suverenlik İli" elan edilib. Əlbəttə bu Sərəncam həm də xalqın illər ərzində arzularının reallığının, milli istiqlal uğrunda, vətənin azadlığı uğrunda tarixi mübarizəsinin uğurlu nəticəsidir. Məlum olduğu kimi əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş 1995-ci il noyabrın 12-də qəbul olunmuş müstəqil Azərbaycan Respublikasının ilk və əsas qanunu - Konstitusiyasının 30 illiyi tamam olur. Bütün dünyanın şahidliyi ilə 2020-ci il 27 sentyabr tarixindən başlayaraq təcavüzkar Ermənistanın təxribatlarına cavab olaraq başlanmış Vətən müharibəsində Qələbə qazandıq. Bu Qələbə bütün Azərbaycana, onu sevənlərə böyük ruh yüksəkliyi bəxş etdi, şəhid qanı ilə sulanmış o torpaqlar bizə daha da əziz, müqəddəs oldu. Bütün bunlardan sonra dövlətimiz xalqın birliyindən, vəhdətindən, rəhbərliyə böyük etimadından, Azərbaycan Ordusunun yenilməz gücündən yeni bir nailliyyət əldə edərək daha da böyük addıma başladı. Ardınca 2023-cü il sentyabrın 19-20-də həyata keçirilmiş uğurlu antiterror tədbirləri nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edildi. Bu tarixi hadisə Azərbaycanın yeni uğuru olaraq Konstitusiyamızın hüquqi qüvvəsi işğaldan azad edilmiş bütün ərazilərimizdə tətbiq olunub. Azərbaycan qələbəni əldə etmək üçün də müstəqil, azad siyasətini açıq şəkildə nümayiş etdirdi. Ölkədə və beynəlxalq müstəvidə müstəqil siyasət yürütmək böyük hazırlıq işlərinin uğurla həyata keçirilməsinə təkan verdi. Biz sübut etdik ki, Qarabağ əzəli Azərbaycan torpağıdır və müstəqil dövlət olaraq haqq-ədalət uğrunda savaşdıq, mübarizəmizi davam etdirdik və istəyimizə nail olduq. Müstəqil, suveren dövlət olaraq beynəlxalq mövqelərimizi möhkəmləndirdik və bu gün də müstəqil Azərbaycanla daha yaxın əlaqələr qurmaq istəyən ölkələrin sayı durmadan artır. Bu gün Azərbaycan sürətli addımlarla irəliləməkdədir, iqtisadi mənzərə ürəkaçandır, hər bir sahədə nailiyyətlərimiz yetərincədir və xalqın güclü inamı, xalq-rəhbər vəhdəti daha da zirvələrə yüksəlməyimizdə böyük rol oynamaqdadır.

Bü gün haqlı, mübariz, müstəqil, azad, nüfuzlu dövlət olaraq Konstitusiyamızın 30 illiyini, Qələbəmizin 5 illiyini fəxr-fəxarətlə qeyd edirik. Bu gün suveren Azərbaycana məxsus olan bütün ərazilərdə Ana Qanunu Konstitusiyamız tətbiq olunur. "Konstitusiya və Suverenlik İli" isə ölkəmizin hərtərəfli inkişafında mühüm mərhələ olaraq tariximizə yazıldı.

**İlhamə SEYIDOVA,**
**"Qəbələ səsi"nin**
**ştatdankənar müxbiri.**

# Tarixi günlər

**9 noyabr Bayraq Günü**

Prezidentimiz 2007-ci il noyabrın 17-də Bakıda Dövlət Bayrağı meydanının yaradılması, 2009-cu il noyabrın 17 isə Dövlət Bayrağı Gününün təsis edilməsi haqda sərəncam imzalamışdır. 2010-cu il sentyabrın 1-də isə İlham Əliyevin iştirakı ilə Dövlət Bayrağı meydanının təntənəli açılışı olmuşdur. Artıq neçə ildir ki, 9 noyabr Azərbaycanda xüsusi olaraq qeyd olunur. Dövlət Bayrağı Günü kimi tariximizə yazılan bu gün sözün əsl mənasında böyük bir bayrama çevrilir. Xalqımızın ilham mənbəyi olan bayrağımız Ginessin Dünya Rekordları Təşkilatının 2010-cu il məlumatına görə dünyada ən hündür, ən uca olduğu təsdiqlənib.

* * *

**17 noyabr**
**Milli Dirçəliş Günü**

Milli Dirçəliş Günü bayramı 1992- ci ildə elan olunub, lakin 1988-ci il noyabrın 17-də başlayan xalq hərəkatının şərəfinə qeyd edilir. Həmin gün Azərbaycanda minlərlə insan azadlıq tələbi ilə meydanlara toplaşaraq SSRİ-yə qarşı ümumxalq etirazına başlayıb.

1992-ci ildən 17 Noyabr Milli Dirçəliş Günü kimi qeyd olunur. Azərbaycanda noyabr hadisələri milli azadlıq hərəkatı kimi qiymətləndirilir və Vətənimizin istiqlaliyyət qazanmasında əsas amil sayılır.